# İnzibati və tədris-köməkçi heyətin işə qəbulu müsabiqəsində iştirak edəcək namizədlər üçün test suallarının cavablandırılmasına dair Təlimat

İmtahana başlamaq üçün kompüterin ekranında görünən müvafiq xanalara namizədlərə qeydiyyatdan keçərkən verilən 6 rəqəmli iş nömrəsi və şəxsiyyət vəsiqəsinin fin kodu daxil edilərək "daxil ol" düyməsi sıxılmalıdır. Açılan pəncərədə namizədin müraciəti üzrə məlumatlar göstəriləcəkdir. Qeyd olunan məlumatların düzgünlüyü yoxlanıldıqdan sonra imtahana başlamaq üçün "imtahana başla" düyməsi sıxılmalıdır. Açılan yeni pəncərədə imtahanın ilk sualı və cavab variantları, imtahanın başa çatmasına qalan müddət və digər məlumatlar görünəcəkdir.

Yuxarı paneldə suallar sayına uyğun olaraq nömrələnmişdir. Narıncı rənglə işarələnmiş nömrə cavablandırılmamış, yaşıl rənglə işarələnmiş nömrə cavablandırılmış, göy rənglə işarələnmiş nömrə isə hazırda ekranda görünən sualı bildirir. Həmin nömrələrdən hər hansı birinin üzərinə sıxaraq birbaşa həmin sualı ekranda göstərmək mümkündür. Bu qayda ilə istənilən sualı yenidən cavablandırmaq və ya seçilmiş cavab variantını dəyişmək mümkündür.

Sualları cavablandırarkən düzgün hesab edilən cavab variantının üzərinə sıxdıqdan sonra aşağıdakı "növbəti" düyməsini sıxaraq digər suala keçilir. Daha əvvəl cavablandırılmış suallara bir daha qayıtmaq üçün əvvəlki düyməsini sıxmaq lazımdır. Qayıtdıqdan sonra seçilmiş cavab variantını dəyişmək də mümkündür.
İmtahanı bitirmək üçün sonuncu sualı ekranda göstərərək, aşağıdakı imtahanı bitir düyməsini sıxmaq lazımdır. Düyməni sıxdıqdan sonra açılan pəncərədəki xanaya iş nömrəsini daxil edərək "bitir" düyməsini sıxmaq lazımdır. Həmçinin, nəzərdə tutulmuş vaxt bitdikdən sonra imtahan avtomatik olaraq bitəcəkdir.

İmtahan bitdikdən sonra ekranda toplanılan bal əks olunacaqdır. İmtahan nəticəsi haqqında ətraflı məlumat şəxsi səhifədə yerləşdiriləcəkdir.